# Romada açılan "Ana təbiət" beynəlxalq incəsənət sərgisi fərqli sənətkarları bir araya gətirib

**İtaliya paytaxtının XXI əsr Milli İncəsənət Muzeyində (MAXXI) açılan "Ana təbiət" beynəlxalq incəsənət sərgisində 28 ölkədən 55 sənətkarın əsərləri nümayiş olunur.**

Sərgidə fərqli instalyasiya, rəsm və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemləri ilə səsləşən hekayələr təqdim edilir. MAMA "Ana təbiət" incəsənət layihəsi müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının nümayişidir. Layihə Azərbaycan, ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Koreya Respublikası, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrdən olan fərqli sənətkarları bir araya gətirib. Layihə iştirakçıları incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır.

Sərgi ziyarətçilərindən İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi AZƏRTAC-a müsahibəsində deyib: "İkinci dəfədir gəldiyim XXI əsr Milli İncəsənət Muzeyində belə möhtəşəm layihənin təqdim olunduğunu görmək çox xoşdur. Buranı ziyarət etmək, nümayiş olunan hər bir əsərlə yaxından tanış olmaq insana böyük zövq verir. Şadam ki, bütün sərgi ziyarətçiləri bu fürsətdən istifadə edirlər. Bu sərgi həmçinin İtaliya ictimaiyyətinə Azərbaycan mədəniyyəti və incəsənəti haqqında daha çox məlumat verməyə imkan yaradır".



İtaliyalı incəsənət nümayəndəsi Massimo D`Ayuto AZƏRTAC-a bildirib ki, sərgidə təqdim edilən hər bir əsərdə dərin məna ifadə olunub: "Bu incəsənət nümunələri insanda böyük hisslər oyadır, planetimizin üzləşdiyi çətinlikləri bir daha anlamağa, gələcək nəsilləri bu ekoloji və sosial problemlərdən qorumağın vacibliyini dərk etməyə səbəb olur. Biz bir daha dərk edirik ki, insanla təbiət arasında zəngin və mürəkkəb münasibətlər, ayrılmaz bağlılıq var".

Ziyarətçilərdən Stefano Traldi isə sərgidə təqdim olunan incəsənət nümunələrinin onda çox böyük maraq doğurduğunu qeyd edib. Bildirib ki, bu əsərlərin hər biri gələcəyimiz üçün böyük məna daşıyır.

MAMA "Ana təbiət" incəsənət layihəsi debütünü ötən ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində edib. Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bəhreyndəki təqdimatla səyahətə başlayıb. Bəhreyndən sonra Romada layihə təqdim olunub. Sərgi mayın 14-dək davam edəcək.

Azərbaycan.- 2025.-11 may (№ 96).- S.14.